GÜZƏRANIMIZ



# "Şahdəniz" bütün istiqamətlər üzrə fəaliyyətini davam etdirir

**Hazırda "Şahdəniz" yatağındakı qurğuların hasilat gücü gündə təxminən 77,2 milyon (ildə təqribən 28,2 milyard) standart kubmetr təşkil edir. Cari ilin birinci yarısında yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından təqribən 14 milyard standart kubmetr qaz və təxminən 2 milyon ton (təqribən 16 milyon barel) kondensat hasil olunub.**

"Şahdəniz"dən Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyekt üçün BTC-yə və Avropadakı alıcılara qaz çatdırılması davam edir. Bununla belə, son onilliklər dünyada kəşf olunmuş ən böyük və zəngin karbohidrogen yataqlarından olan "Şahdəniz"in qalan ehtiyatlarının üzə çıxarılması üçün də ardıcıl işlər aparılır. Məsələn, son aylar "Şahdəniz-2" layihəsi çərçivəsində qərb-cənub cinahından beşinci quyu işə salınıb və qalan quyularda sualtı işlər üzrə fəaliyyətlər davam edib.

Əvvəla qeyd edək ki, "Şahdəniz"də iştirak payları belədir: BP (operator - 29,99 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz), "Cənub qaz dəhlizi" (16,02 faiz), NİKO (10 faiz), MVM (5 faiz).

"Xankəndi" sualtı tikinti gəmisi hazırda istismarda olan bütün "Şahdəniz-2" və "Azəri-Çıraq-Günəşli" (AÇG) sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verir. Yeri gəlmişkən xatırladaq ki, bu gəmi məxsusi olaraq nəhəng "Şahdəniz"də işləmək üçün inşa edilib.

Regionda tətbiq edilən vahid gəmi strategiyasına uyğun olaraq "Xankəndi" dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün əsas gəmi kimi istifadə olunur. Bu isə BP və tərəfdaşlarının əməliyyatlarının daha təhlükəsiz və daha səmərəli olmasına xidmət edir.

"Şahdəniz-2" layihəsi çərçivəsində görülən işlər "Xankəndi" gəmisinin əsas fəaliyyəti kimi qalmaqdadır. Burada başlıca diqqət layihə üzrə qalan quyuların təhvil verilməsinə yönəldilib. Gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafik hazırlanıb.

"Şahdəniz" layihəsinin operatoru olan BP şirkətinin məlumatına görə, bu ilin birinci yarısında "Şahdəniz Alfa" platformasının qazma qurğusu yenidən aktivləşdirilmə rejimində olub. "İstiqlal" və "Heydər Əliyev" qazma qurğuları "Şahdəniz-2" layihəsi çərçivəsində quyular üzrə işləri davam etdiriblər. "İstiqlal" qərb-cənub cinahındakı bir quyuda işlər aparıb. "Heydər Əliyev" qazma qurğusu isə şərq-şimal cinahındakı digər bir quyuda işləyib.

Ümumilikdə "Şahdəniz-2" çərçivəsində 22 quyu qazılıb. Bu quyuların beşi yatağın şimal cinahında, beşi qərb cinahında, dördü şərq-cənub cinahında, beşi qərb-cənub cinahında və üçü şərq-şimal cinahında yerləşir.

Məlumdur ki, "Şahdəniz" qaz yatağının işlənməsinin növbəti mərhələsinə qədəm qoyulub. 2,9 milyard dollar dəyərində olan "Şahdəniz Kompressiya layihəsi"ndə (ŞDK) məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməkdir. Onların hasilatının təmin edilməsi ilə yataqdan maksimum qazvermə əmsalına nail olunacağı gözlənilir. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı nəzərdə tutulub.

Bu ilin aprel ayında ŞDK layihəsi üçün Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi üzrə ictimaiyyətlə məsləhətləşmələrin müddəti bitib və may ayında sənədin yekun versiyası hökumət tərəfindən təsdiqlənib. İyunun əvvəlində isə "Şahdəniz" konsorsiumu ŞDK üçün yekun investisiya qərarını elan edib.

Layihə çərçivəsində yeni bir kompressiya obyektinin - elektriklə işləyən, heyətsiz kompressiya platformasının və ya əsasən heyətsiz qurğu inşası nəzərdə tutulur. Layihə həmçinin "Şahdəniz" müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, eləcə də "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarında və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

Tikinti işlərinin bu ilin sonlarında başlanacağı planlaşdırılır. Tikintinin 2029-cu ildə başa çatması ilə yeni platformanın həmin il "Şahdəniz Alfa"dan, 2030-cu ildə isə "Şahdəniz Bravo"dan çıxarılan qaz həcmlərini kompressiya üçün qəbul etməyə hazır olacaq.

Beləliklə, "Şahdəniz" layihəsinin uğurlar salnaməsinə yeni səhifələr yazılacağını gözləyirik.

*Flora SADIQLI,*
*"Azərbaycan"*